**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№292/3** **8 noyabr 2017-ci il**

# Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişinin layihəsinin müzakirəsi barədə

Auditorlar Palatası Şurasının 2016-cı il 21 dekabr tarixli 283/5 saylı qərarı ilə təsdiq edilmiş "Dempinqə və haqsız rəqabətə qarşı mübarizəyə dair tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi üzrə Plan proqram"ın 6-cı "Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişinin layihəsinin və tətbiqi mexanizminin hazırlanması" bəndinə uyğun olaraq Auditin hüquqi təminatı və standartlaşırma idarəsi (M.Abbasov) tərəfindən təqdim edilmiş layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişi"nin layihəsi bəyənilsin (əlavə olunur).
2. Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinə (M.Abbasov, B.Məmmədli) tapşırılsın ki, on gün müddətində partnyorluq sazişinin layihəsi auditor təşkilatları və sərbəst auditorlara göndərilsin və onlara tövsiyə edilsin ki, layihə barəsində rəy və təkliflərini bildirsinlər.
3. Partnyorluq sazişinin layihəsinin ictimai müzakirəyə çıxarılması məqsədilə Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**